Proceedings of the 9th International Scientific and Practical Conference «Current Issues and Prospects for the Development of Scientific Research»
(June 19-20, 2024).
Orléans, France

No
205

LITERARY STUDIES

DOI 10.51582/interconf.19-20.06.2024.017

# Multicultural values in «Kitabi-Dade Gorgud» and «Koroglu» epics

**Khanaliyeva Narmina Azad**[1]

[1] 3rd year PhD at Philology faculty;
*Baku State University of Azerbaijan;* Republic of Azerbaijan

**Abstract.**
The article examines multicultural values, ethnic and religious tolerance. The research is conducted on the epics "Kitabi-Dada Gorgud" and "Koroghlu". First, the similar and different features between the types of epics – heroic and love epics are explained, the similar features between female characters from Islam, Judaism, and Christianity are mentioned, and the motives of heroism and love are brought forward. In Kitabi-Dada Gorgud saga, it is reflected that the main task and purpose of the state is to create unity and solidarity in the relations between people and all nations in the society, to give peace and tranquility to the human race, and to bring people to happiness and happiness. In the "Koroghlu" saga, Koroghlu and his madmen are investigated as historical figures. Here, nonobservance of Islamic rules, lack of religious and national differences, and tolerance are emphasized. The multiculturalism of the Azerbaijani people since ancient times has been interpreted scientifically and artistically.

**Keywords:**
*epic*
*character*
*tolerance*
*multicultural values*

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

# LITERARY STUDIES

Azərbaycan ədəbiyyatı özünün misilsiz ədəbi-bədii nümunələri və dahi şəxsiyyətləri ilə, bütövlükdə Azərbaycan mənəvi mədəniyyət xəzinəsini yaradıb. Türk şifahi xalq yaradıcılığı ənənələrindən doğan Azərbaycan ədəbiyyatı həm də zəngin bədii forması, düşüncə müxtəlifliyi, fikir və ideya rəngarəngliyi, dünyagörüşü, həyata, gerçəkliyə baxış fəlsəfəsi ilə diqqəti cəlb edib. Məlumdur ki, erkən dövlərdən başlayaraq Azərbaycan ərazisində baş verən siyasi, sosial-iqtisadi hadisələr dövrün mədəni-mənəvi həyatına da ciddi təsir edib, çoxsaylı ideya və fikir cərəyanlarının, məktəb və təriqətlərin yaranmasına gətirib çıxarıb. Həmin dövr Azərbaycan tarixinə nəzər salsaq görərik ki, bu dövr mürəkkəb tarixi hadisə və siyasi çəkişmələr, qarşıdurma və ziddiyyətlərlə zəngin olub. Heç şübhəsiz ki, cəmiyyətin ictimai-siyasi həyatında baş verən bu proseslər mədəniyyətə, incəsənətə, ədəbiyyata da təsirsiz ötüşməyib. Bu da öz növbəsində həyat gerçəkliklərinə, insanlara, onların baş verənlərə münasibətində özünü göstərib. Bu gerçəklik isə istər dini, istərsə də dünyəvi baxımından Azərbaycan ədəbiyyatının fəlsəfi, psixoloji və sosioloji təhlili üçün geniş imkanlar açıb. Buna görə də Azərbaycan ədəbiyyatı ədəbiyyatşünaslıq, dilçilik, poetika baxımından diqqəti cəlb etməklə yanaşı, həm də multikultural dünyagörüşün təzahürü, multikultural baxış və fəlsəfənin, həmçinin tolerantlığın ehtiva olunduğu mənbə kimi də diqqət cəlb edir. Hər bir xalqın ədəbiyyatı başlanğıcını şifahi xalq ədəbiyyatından götürür. Bizim də folklorumuzdə istər başlanğıc mənbə olaraq, istərsə də multikultural dəyərlərin əks olunduğu resurs kimi dastanlar xüsusi əhəmiyyət kəsb edir.

Onlar Azərbaycan şifahi xalq ədəbiyyatının epik janrına daxildir. Dastanlar ideya, forma və məzmun baxımından uzun tarixi inkişaf mərhələlərindən keçmiş, müxtəlif ad və terminlərlə dastan şəklində sabitləşmişdir. Belə ki, rəvayət, qissə, əhvalat, poema, epos və s. terminlər dastan sözünü əvəz etmişdir. Dastan çoxmənalı sözdür. Buna görə də epik növün nağıl, əfsanə, rəvayət janrlarının yanında da işlədilir. Bu janr mövzu baxımından qəhrəmanlıq və məhəbbət dastanları olaraq 2 yerə bölünür. Qəhrəmanlıq dastanlarının sırasında həcminə görə "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları mühüm yer tutur.


*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

LITERARY STUDIES

Azərbaycanlıların qəhrəmanlıq dastanları sırasında yer alan ən qədim yazılı abidəsi "Kitabi-Dədə Qorqud" bir müqəddimə, on iki boydan ibarətdir. Boylar müxtəlif vaxtlarda fərqli aşıqlar tərəfindən yaradılıb. Burada qəhrəmanların yerli və yadelli düşmənlərə qarşı mübarizəsindən bəhs olunur. Epos köçəri-patriarxal qəbilə quruluşunun dağıldığı, feodal münasibətlərinin gücləndiyi dövrlərin məhsuludur. Dastanda əks olunan cəmiyyətin başçısı Bayandur xan olsa da, boylarda yalnız onun adı çəkilir. Oğuz bəyləri onun yanına mühüm bir məsələ ilə bağlı gedirdilər. Görüş zamanı bəylər onun əlini öpür, qarşısında diz çökürdülər. İlk dəfə igidlik göstərən bəy bir şərtlə, ad almaq məqsədilə onun yanına buraxılır və yalnız bundan sonra o, Oğuz igidləri sırasına daxil ola bilirdi. Dastanın əsas qəhrəmanı Qazan xan və onun ətrafındakı igidlərdir. Əsərdə Salur Qazan – "qırış günü öndən təpən", "Ulaş oğlu, tulu quşun yavrusu, qonur atın ayası, xan Uruzun ağası, Bayandur Xanın göyküsü" kimi təqdim olunur. Əsərdə evinin yağmalanması, oğlunun və özünün əsir alınması və s. Qazan xanı bir qəhrəman kimi səciyyələndirən əsas hadisələrdir. Qazan xan mərd, xalqını düşünən, ona sadiq, fədakar, məğlubedilməz, vətənpərvər, qorxmaz bir igid, qəhrəmandır. Oğlu Uruz da ona bənzəyir: atası kimi yenilməz bir igiddir. Dastanda Uruz düşmənə iki dəfə əsir düşür, lakin məğlub olmur, ailəsinin, atasının şərəfini qoruyur. Hətta "qıyma-qıyma doğransa" belə anasından düşmənə özünü bəlli etməməsini xahiş edir. Ailə şərəfi, namus və ləyaqətlilik Azərbaycan xalqının milli ideologiyasında, xarakterində, mənliyində mühüm amildir. Sadalanan bu xüsusiyyətlər Uruz obrazında cəmlənmişdir.

Sadə xalq zümrəsindən olan Qaraca Çoban öz igidliyi ilə düşmənə qalib gəlir, hətta düşmənin basqını zamanı iki qardaşını qurban verir. Sürüləri xilas edir, altı yüz nəfərlik düşmən ordusu ilə təkbaşına vuruşur. Daşı tükənsə də sürüdən qoyun, quzunu sapanda qoyub atmaqla düşmənə zərbə vurur. Onun igidliyi dastanda qeyri-adi formada təsvir olunur: Hər dəfə sapandını atanda iki, üç düşmən öldürür. Sapandı da qeyri-adidir. Sapandın içi "üç yaşar dana dərisindəndir, qolları üç keçi qılından toxunmuşdur, hər atanda on iki batman daş atır, atdığı daş yerə düşmür, düşəndə toz kimi sovrulur, ocaq kimi ovulur, daş düşən yerdə 23 il ot bitmir" [3, s.189].

This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

# LITERARY STUDIES

"Kitabi-Dədə Qorqud" eposunun obrazlarının həyatında multikulturalizm yaşantılarını görmək mümkündür. Oğuz dövlətinin başlıca amalı və məqsədi cəmiyyətdə insanlar və bütün xalqlar arasındakı münasibətlərdə birlik və həmrəylik yaratmaqdan, bəşər övladına dinclik, əmin-amanlıq verməkdən, insanların xoşbəxtliyə və səadətə qovuşdurmaqdan ibarət idi. Oğuz tayfaları İç Oğuz və Dış oğuz olmaqla iki yerə ayrılmasına baxmayaraq, hər iki tayfanın insanlarının əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan hər iki tayfanın və ümumilikdə elin ağsaqqalı Dədə Qorqud var idi. Dədə Qorqud öz varlığı ilə bu iki tayfa arasında qarşılıqlı hörmətin təmsilçisi idi. "Kitabi-Dədə Qorqud" dastanında qonşu xalqlarla münasibətlər ən sivil formada tənzimlənir. Öncə onu vurğulayaq ki, dastandakı qəhrəmanların müsəlman dindarlığı mühafizəkarlıqdan xeyli uzaq bir məzmundadır. Azərbaycanlıların əcdadları ilk müsəlmanların bu cür təqdimatında hətta din xadimləri zümrəsi də yer almır. Qorqud qəhrəmanlarının tapındığı din falçı, pir, molla, imam dini deyil, sözün birbaşa mənasında Quranda ifadəsini tapan xalis dindir, Allahın dinidir. Oğuz türkünün Tanrıyla təması mistik aləmə qapılanların, məbədlərdə gün keçirənlərin, guşənişinlərin ibadətinə əks məzmundadır. Bu məzmun sırf həyati müstəvidə və təktanrılığın insan üçün nəzərdə tutulan təyinatına tamamilə uyğun gəlir ki, Tanrıdan qəbul görür. Bamsı Beyrək boyunda olduğu kimi: "Ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcəb olurdu".

"Dədə Qorqud" boylarında kişilər kimi qadınlar da mərd və mübarizdirlər. Arvadın ərə, ananın oğula, bacının qardaşa qarşı sonsuz məhəbbətlə bağlılığı, nişanlı qızın nişanlısına sədaqəti – bütün bunlar Azərbaycan qadınına məxsus milli xarakterdən irəli gələn xüsusiyyətlərdir. Bu qadınlar cəsur və qorxmazdırlar. Onlar at minir, ox atır, düşməni susdururlar. "Dirsə xan oğlu Buğac" boyunda Dirsə xanın arvadı oğlunun ovdan geri dönmədiyini görüb atını minir, qırx incə belli qızla onu axtarmaq üçün dağlara çıxır və nəticədə yaralanmış oğlunu tapır. Uruz əsir düşdükdə Burla xatun silahlanır, oğlunu əsirlikdən qurtarmaq üçün igidlərlə birlikdə döyüşür. Bu yolda min bir əziyyətlə qarşılaşsa da, məqsədindən dönmür. Qanturalın nişanlısı Selcan xatun düşmənləri qovur, "yağının bir ucu mənim, bir ucu sənin" deyib


*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

# LITERARY STUDIES

yaralanmış ərinə kömək edir. Dastanda Selcan xatun şücaəti ilə, "ov ovlayıb, quş quşlaması", "sağınasoluna iki qoşa yay çəkməsi", "atdığı oxun yerə düşməməsi" ilə diqqət çəkir. Banuçiçək Beyrəklə ox atır, at sürür, güləşir. İgid bir qəhrəman olmasına əmin olduqdan sonra onunla ailə qurmağa razılıq verir. Dastanda qadına, anaya hörmət mühüm əhəmiyyət daşıdığı kimi, əməkçi insan obrazları da əsas yer tutur.

Eposda həm müsəlmanlara, həm də xristianlara xas oxşar süjetlərə rast gəlinir. Məsələn, xristian ata qızını verəcəyi oğlanın cəsarətini yoxlamaq niyyətilə tələblər qoyur, Banuçiçək ərə gedəcəyi oğlanın igidliyini sınamaq üçün onunla döyüşür; ox atır, qılınc, nizə oynadır. Bu motivlər müsəlman aləmində ənənəyə çevrildiyi kimi, xristian dünyasında da öz əksini tapır və bəşəri səciyyə daşıyır. Xristian qızının eposdakı təsvirləri, atasının əsiri, düşmən elindən olan oğlana aşiq olması, ona sədaqəti, inamı, trabzonlu xristian qızı Selcan xatunun Qanturalıya ərə getməsi, onunla birgə atasının qoşununa qarşı vuruşması – bütün bunlar xristianlar üçün də dini mənsubiyyət fərqliliyinin önəmli olmadığını təcəssüm etdirir. Kitabdakı boyların biri "Qanlı Qoca oğlu Qanturalı" boyudur. Burada əhvalat belə qurulur ki, gənc Qanturalı evlənmək üçün "kafir" qızının - sarı donlu Selcan xatunun, Trabzonun xristian başçısının qızını seçir. Oğuz bəyləri üçün bu dini mənsubiyyət heç bir mənada başqalıq ifadə etmir. Qanturalının gələcək həyat yoldaşında görmək istədiyi yalnız bu keyfiyyətlərdir: "Ata, məni evləndirmək istəyirsənsə, bilirsənmi mənə layiq qız necə olmalıdır?... Mən yerimdən durmadan o durmuş olsun! Mən Qaracıq atıma minmədən o minmiş olsun!...". Selcanla evlənməsinə qızın atasından icazə versin deyə Qanturalı onun üçün hazırlanmış ağır sınaqdan keçərək özü də təbii ki, bir igidlik nümunəsi sərgiləməli olur, bir buğa, ardınca da bir aslanla çarpışır. Sınağını qələbə ilə başa vurub Selcan xatunla öz yurduna yola düşür. Qızını müsəlman oğuz gəncinə verdiyindən peşmançılıq çəkən Trabzon təkuru onların ardınca qoşun göndərir. İki gəncin üstünə bu dəfə düşmən qismində gələn təkur döyüşçülərini Qanturalı ilə Selcan xatun, biri müsəlman, o bir xristian inanclısı olaraq birgə dəf edirlər. Dastan boyu Selcan xatuna dini baxımdan heç bir ögeylik sərgilənmir. Əksinə, onun qəhrəmanlığının təsvirində şəxsinə məhrəm bir

This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

# LITERARY STUDIES

münasibət ifadə olunur. Selcan obrazı qadına ailə namusu, qəbilənin şərəfi, mənəvi-əxlaqi təmizlik və qəhrəmanlıq nümunəsi kimi baxılan oğuz qadınlarının mühitində tam doğmalaşmış birisidir ki, bu keyfiyyətlərin hamısını Azərbaycanlı oxucu onda görür. Və buna görə də bu xristian Selcan xatunu müsəlman oğuz qızlarından fərqləndirə bilmir. Dastanda qadın obrazlarından başqa birisi müsəlman oğuz qızı Banuçiçəkdir. "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda yer alan bu obraz da Selcan xatun əlamətində bir qızdır. Onunla nışanlanmış Bamsı Beyrək də öz atasına eyni xüsusiyyətlərə malik bir qızla evlənmək istədiyini bəyanlamışdı: "Baba, mana bir qız alı ver kim, mən yerimdən turmadan ol turğac gərək! Mən qaraqoç atıma binmədən ol binmək gərək!.." Bu gəlinlərdən biri müsəlman oğuz qızı Banuçiçək, o birisi xristian qızı Selcan xatundur. Hər ikisi Azərbaycan oxucusu üçün eyni dərəcədə doğmalıqla dastanda tərənnüm edilir. "Kitab-i Dədə Qorqud"da başqa bir qadın obrazı da var ki, dini mənsubiyyətcə o da xristiandır, ancaq oğuz qadınlarının içində deyil, düşmən tərəfdədir. "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda bu xristian qızı düşmən cəbhəsində olsa da Azərbaycanlı oxucunun rəğbətini qazanır. Bu, Bayburd hasarı bəyinin qızıdır. Beyrək onun atasının əsirliyində olarkən bu oğuz bəyinə aşiq olur. Dustaqxanada ona yaxınlaşıb deyir: "Əgər səni hasardan örkənlə aşağı sallasam, sağ-salamat ata-ananın yanına getsən, məni burda gəlib halallığa alarsanmı?" Beyrək bu xristian qızının şəxsiyyətini uca tutduğuna görə müqəddəs Oğuz andı içir: "Oğuz yurduna salamat çatsam, gəlib səni halallığa almasam, qılıncımla doğranım! Oxuma sancılım! Yer kimi çatlayım, torpaq kimi sovrulum!". Xristian qızının əsirlikdən azad etdiyi Beyrək öz nişanlısı Banuçiçəyə qovuşur və təbii ki, xristian qızı ilə evlənmək andına xilaf çıxır. "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy"da Beyrəyin həlak olması bu andına xilaf çıxmağının nəticəsi kimi də izah edilir [6, s.83]. Bu fikirlə razılaşmayaraq qısaca onu deyə bilərik ki, Beyrək Qazan xana xəyanət etmədiyi üçün öldürülür. "Mən Qazanın nemətini çox yemişəm, Bilməzsəm, gözümü tutsun! Qaraçıqda Qazlıq atına çox minmişəm, Bilməzsəm, tabutum olsun! Böyük, geniş otağına çox girmişəm, Bilməzsəm, zindanım olsun! Mən qazana dönük çıxmaram, qəti bilin!"

Biz multikultural bir mühiti, çox mədəniyyətliliyi


This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

# LITERARY STUDIES

«Koroğlu» dastanında obrazların yaşamında görürük. Əsərdə Koroğlunun ətrafına toplanan dəlilər əsasən Qafqazda yaşayan müxtəlif xalqların nümayəndələridir. Onların arasında milli və dini baxımdan hər hansı fikir ayrılığının olduğu heç bir zaman görünmür. Gürcüoğlu, Kürdoğlu, Eyvaz (əslən türkməndir) kimi onlarla cavanlar dastanda təsvir olunur ki, bunlar həm adları, həm də xarakterləri ilə müxtəlif xalqın nümayəndəsi sayılır.

Dastanda Koroğlu igidlərinin məskəni, vətəni – Çənlibeldir. Onlar düşmənin ayağını Çənlibelə dəyməyə qoymurlar. Əsərin əsas qəhrəmanı olan Koroğlu Təkə-Türkmən elindən qəssab Alı kişinin oğlu Eyvazı oğulluğa götürür. Bu işə razılıq verən qəssab Alı Koroğluya "namına qıyıb Eyvazı sənin əlindən almıram. Apar get, amma gözün üstündə olsun" - deməklə həm də ona inamını ifadə edir. Məlumdur ki, Koroğlu tarixi şəxsiyyətdir. O, XVI əsrin sonu, XVII əsrin əvvəllərində Türkiyədə baş vermiş Cəlalilər adı ilə tanınan məşhur xalq üsyanlarında iştirak etmişdir. Bir xalq qəhrəmanı kimi Koroğlu haqqında dastanın qollarında söylənilən rəvayət və hekayələr də həmin dövrə təsadüf edir. Bu, əsasən, qədim Göytürklər dövründə Türkiyə ilə İran arasında gedən savaşların əsasında yaranması ilə səciyyələnir. Buna əsaslanaraq deyə bilərik ki, "Koroğlu" dastanında Koroğlunun ətrafına toplanan igidlər də Cəlalilərdir. Onlar müxtəlif xalqların ictimai mənafeyi, arzu və istəkləri uğrunda vuruşmuş, ədaləti, haqq işini təcəssüm etdirmişlər. Dastanın üç - Türkmən, Azərbaycan, Kiçik Asiya variantları mövcud olsa da, əsasını Azərbaycan variantı təşkil edir. Epos ayrı-ayrı etnik qrupa malik Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra qədim tarixi qəhrəmanlıq salnaməsidir. Koroğlunun əsl adı Rövşəndir. Atası Alı kişinin gözləri Həsən xan tərəfindən haqsız olaraq çıxarılır. Bu hadisədən sonra Rövşən xalq tərəfindən Koroğlu ləqəbi ilə tanınır. Atasının qisasını alan Koroğlu xalqın vəkilinə çevrilir. Xalqa arxalanan qəhrəman dəlilərilə birgə apardığı mübarizədə qalib gəlir. Onun ətrafına yığılan dəlilər - Dəli Həsən, Xan Eyvaz, Dəmirçioğlu, İsabala, Dəli Mehtər, Dəli Əhməd və digərləri xalqın igid oğullarıdır.

"Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposunun həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarının yaranmasında mühüm

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

# LITERARY STUDIES

əhəmiyyəti olmuşdur. Onu da qeyd edək ki, hər iki dastanda məhəbbət motivləri dərin lirizmlə ifadə edilir. Dastanda dini, milli mənsubiyyət fərqi yoxdur. Burada dəlilər ayrı-ayrı tayfa, qəbilə və xalqın nümayəndələrini təmsil edirlər. Bu, bəzilərinin adlarından da bəllidir. Məsələn: Ərəboğlu, Kürdoğlu, Gürcüoğlu və b. Onların sırasında ləzgi, fars, türk igidləri də var. Qırx min gürcü, ləzgi, Rüstəm övladı, Çəkər qılınc, kəsər dəmir, poladı. Salar cana qorxu, Koroğlu adı Koroğlu üstünə sirlərlə gəlir. "Koroğlu" dastanında islam dininin qayda-qanunlarına əməl olunmur. Hətta dəlilərdən birinin adı Tanrıtanımazdır. Burada ruhani obrazına rast gəlmək mümkün deyil. Koroğlu və onun dəlilərini bir məsələ düşündürür və birləşdirir: düşmən birdir. Bütün xalqların istismarçı təbəqələri – zülmkar şahlar, bəylər, din mühafizəkarları və başqaları – onların hamısı antifeodal azadlıq mübarizəsində həmrəydirlər.

"Dəli" sözü bədii ədəbiyyatda bir neçə mənada işlədilir. Bu ifadə yaşadığı cəmiyyətin eybəcərlikləri ilə mübarizədə özünü dəliliyə vurmağa məcbur olan, həqiqətdə isə dəlilik dərəcəsinə çatan, psixoloji cəhətdən sarsılan, dəli dolu, qorxmaz insanlara deyilir. Qəhrəmanlıq dastanlarında isə "dəli" sözü igidlik, qəhrəmanlıq, dəlidolu, dəliqanlı anlamında işlənilir. Bu, haqsızlığa dözə bilməyən, həqiqət uğrunda savaşanlara aid bir ifadə, simvoldur ki, "Kitabı-Dədə Qorqud" dastanından "Koroğlu" eposuna da transfer olunub.

Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" eposundakı obrazlar sonradan yaranmış Azərbaycan yazılı, klassik və şifahi xalq ədəbiyyatında yansıma şəklində özünü ifadə edir. Həmçinin qəhrəman qadın obrazlarının (Burla xatun, Banuçiçək, Selcan xatun, Nigar, Telli, Tomris, Şirin, Nüşabə, Həcər və b.) igidliyi bu obrazlarda özünü ifadə edir [8, s.6]. Çənlibelə gələn qızların hər biri bir eli, bir obanı təmsil edir: Nigar xanımla Mehri xanım istanbullu, Telli xanım ərzurumlu, Ruqiyyə xanım bəyazidli, Hüri xanım qarslı, Dünya xanım ərzincanlı, Məhbub xanımla Şirin xanım rumlu və b. Onların hamısı xotkar, paşa, sultan, xan, bəy qızlarıdır. Hər biri öz arzu və istəyi ilə Çənlibelə gəlib və bir məkanda mehriban ailə kimi yaşayırlar. Onların içərisində xristianlığı təmsil edən qızlar da istisna deyil. Məhbub xanımla, Şirin xanım rumlu xristian qızlarıdır. Buradakı qadınlar qəhrəmanlıqda,


*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

# LITERARY STUDIES

döyüşkənlikdə, sədaqətdə heç də "Kitabi-Dədə Qorqud" boylarındakı qadınlardan geri qalmırlar.

Beləliklə, dastanların ümumi məzmunundan və faktlarından qəti bir nəticə çıxır ki, oğuz elinin və Çənlibelin insanları digər dil və dini mənsubluğa malik olan insanlara heç bir fərq qoymayıb, humanist düşüncə, həyat tərzi və dünyagörüşünə malik olublar. Onlar xeyirxah, çətin vəziyyətdə olan insanlara kömək edən, torpaqlarını düşmənlərdən qoruyan, adət-ənənələrinə bağlı olan, mərd, cəsur bir etnik milli-mədəni varlıq kimi özlərini təcəssüm etdiriblər. Bütün bu tədqiqatların işığında qeyd edə bilərik ki, həm qədim dövrümüzün tarixi faktlarını, həm də müstəqillik dövrümüzün azərbaycançılıq və multikulturalizm dəyərlərini özündə cəmləşdirən "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları Azərbaycan xalqının tərcümeyi-halı kimi qəbul edilə bilər.

**References:**

[1] Azərbaycan dastanları. (2005). Beş clilddə, II cild. Bakı, "Lider" nəşriyyatı.
[2] Əfəndiyev P. (2011). Azərbaycan folklorşünaslığının problemləri. Bakı, Elm və təhsil.
[3] Kitabi-Dədə Qorqud. (2004). Əsil və sadələşdirilmiş mətnlər. Bakı, Öndər.
[4] "Koroğlu". (2004). Bakı, Çaşıoğlu.
[5] Qasımoğlu N. (2016). Multikultural irsimizdə dini əks-səda. "Multikulturalizm" ədəbi-bədii elmi publisistik jurnal, № 4.
[6] Quliyeva S. (2021). Azərbaycan ədəbiyyatında multikulturalizmin bədii inikası (Monoqrafiya). Bakı, Elm.
[7] Soltanqızı Hüseynova P. (2023). Azərbaycan ədəbiyyatı. Multikultural dəyərlər və tolerantlıq (Monoqrafiya). Bakı, "Müəllim" nəşriyyatı.
[8] Soltanqızı Hüseynova P. (2017). Müasir və klassik ədəbiyyatın aktual məsələləri (Dərs vəsaiti). Bakı, Elm və təhsil.

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*